**Emin Sabitoğlu – 85**

# Nəğmələrdə yaşanan ömür

**...Mərhum müğənni Mirzə Babayevin ifasında "Düşürsən yadıma yağanda yağışlar" mahnısı səslənirdi. Şair Vaqif Səmədoğlunun sözlərinə bəstəkar Emin Sabitoğlunun yazdığı mahnı idi. Hər zamankı kimi zövq ala-ala dinlədim. Yadıma düşdü ki, bu gün elə unudulmaz bəstəkarın doğum günüdür. Çiskinli havada həmin mahnını səsləndirməklə xatırlanması da sanki bir qanunauyğunluq idi. Cəmi 63 il ömür sürmüş Emin Sabitoğlu o sənətkarlardan idi ki, çoxsaylı mahnılarından hər hansı birini eşidən adi musiqi həvəskarı belə, müəllifin kim olduğunu dərhal bilir.**



Emin Sabitoğlu 2 noyabr 1937-ci ildə Bakıda yazıçı Sabit Rəhmanla İsmət xanım İrəvanskayanın ailəsində anadan olub, 2000-ci il noyabrın 18-də vəfat edib. Xalq artisti, Dövlət Mükafatı laureatı idi. Konservatoriyada Qara Qarayevin sinfində oxuyub. Daha sonra P.Çaykovski adına Moskva Dövlət Konservatoriyasına Yuri Şoporinin bəstəkarlıq sinfinə keçirilib. Çox məhsuldar çalışıb. 600-dən artıq mahnı, 9 musiqili komediya, 40-a yaxın filmə musiqi bəstələyib. Şövkət Ələkbərova, Zeynəb Xanlarova, Gülağa Məmmədov, Yalçın Rzazadə, Flora Kərimova, İlhamə Qulyeva, Hüseynağa Hadıyev, Akif İslamzadə, Anatollu Qəniyev, Azər Zeynalov və başqa ünlü müğənnilər onun mahnılarını hər zaman sevə-sevə oxuyub, dinləyici qəlblərinə yol tapıblar. Bu baxımdan "Dərələr", "Ağ çiçək", "Kəpənək", "Əsir payız küləyi", "Bizim Lənkəran", "Gün keçdi" filmindən bayatılar, "Belə ola həmişə", "Bağışla", "Çiçək yağışı", "Bu gecə", "Sən olmuşam", "Alagözlüm", "Şükriyyə", "Payız gəldi", "Uzaq yaşıl ada" kimi möhür vurduğu mahnıları daha çox könül oxşayan əsərlərdir.

Bəstəkarın yeganə qızı, musiqişünas, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova bir neçə il əvvəl mətbuata verdiyi müsahibədə demişdi: "İstərdim ki, atamı musiqiləri ilə xatırlasınlar" deyəndə əmin idi ki, bu, bəstəkara əbədi həyat arzusudur. Bir övlad üçün valideyninin daim xatırlanmasından böyük təsəlli, fərəh ola bilərmi? Daha sonra Ceyran xanım ən xoş xatirələrini dilə gətirib: "Atam sağ ikən onun ad günü bizim ailədə bir bayram olurdu. Çünki anam və mən yayda dünyaya gəlmişdik və daim yay aylarında hardasa istirahətdə olurduq. Ona görə də atamın ad günü sanki üçümüzün də doğum günü idi, qeyd edirdik həmişə. Onun ətrafına qohumları, dostları toplaşırdı. Ömrünün son illərində İstanbulda yaşayıb işləyirdi. Ona görə də ad günlərini bizimlə keçirmirdi. Zəng edib onu təbrik edirdik... Onun musiqisini sevirlər, paylaşırlar. Bundan qürur hissi duyuram, çox fəxr edirəm ki, insanlar atamı yad edirlər."

Ceyran xanım müsahibədə bir məqamı da vurğulayıb ki, atası vəfat etdikdən sonra onun notlarını, akademiyadan götürdüyü kitabları Bakıya gətiriblər. Bunlar ancaq Qara Qarayevin, Fikrət Əmirovun əsərləri idi. O, Türkiyədə tələbələrinə başqa klassiklərlə yanaşı, Azərbaycan musiqisini də geniş təbliğ edib, sevdirməyə çalışıb.

Bəstəkar teatrı, kinonu çox sevirdi. Onun dünyagörüşü, maraq dairəsi çox geniş idi. Elə teatr və kino üçün çalışmaları da bunu sübut edir. Bir neçə mahnısı dərc olunmamış qalıb.

Beş il əvvəl Prezident İham Əliyev Emin Sabitoğlunun 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır. Yubiley maraqlı tədbirlərlə yadda qalıb. Elə indi də xatirəsinə həsr olunan mərasimlər, konsertlər keçirilir.

Yazının əvvəlində unudulmaz sənətkarın bir sıra pakizə mahnısının adını çəkdim. Amma bu gün Emin Sabitoğlu haqqında düşünəndə öz ifasında, yapışıqlı səslə ifa etdiyi "Aman ayrılıq" mahnısının həzin sədaları nədənsə qulaqlarımdan getmədi ki, getmədi:

***Mən ki doymamışdım heç vüsalından,***
***Mənə zülm elədi yaman ayrılıq.***
***Nə olardı bir gün durub yuxudan,***
***Görəydim ki, olub yalan ayrılıq...***

Təsəllimiz budur ki, mahnıları səsləndikcə Emin Sabitoğlu ehtiramla yad olunacaq, Azərbaycan mədəniyyəti qarşısında xidmətləri onun xatirəsini yaşadacaq.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***